# Günəş işığıyla səma zalında...

**Ot kökü üstə bitər**

Yaşadığımız tarix boyu insanın şüuraltı düşüncələrində belə onun yaşadığı məkan onun üçün fərqli olub. Dünyaya göz açdığı məkan olan isti ocağı, doğma insanların toplum halında yaşadığı yerdən başlanıb vətən.




Həyat davam etdikcə qan qohumlarının sayı artdıqca irqi, dini, məsləki bir insanlar toplum halında yaşayıb bir millət olmuş, bu millətin birgə yaşadığı torpaq onu qoruyanların, onu sevənlərin könül məhbubu olmuşdur. Torpağın yadellilərdən müdafiəsi zamanı canını belə qurban verən insanlar bu torpaqları qiymətləndirərək ana vətən titulu qazandırmışlar. Axı bu müdafiə zamanı qorxmaz insanların qanı bu torpağa axmış və əbədiyyən torpağa qarışmışlar.

Torpaq onu sevib canını fəda edənlərin igidliyi ilə yoğrulmuşdur. Belə qəhrəmanlar və bu qəhrəmanları əbədiyyən yaşadan və onları özlərinə örnək bilən insanlar vətənpərvər adlandırılmışlar. Vətənpərvərlik və şəhidlik ta qədimdən mövcud olmuşdur. Vətən uğrunda canını fəda edənlər şəhid adlandırıldığı kimi onların mübarizə yolunun şəhadət adlandırılması da məhz hər kəsin düşüncə tərzində əbədi formalaşmışdır. Şəhidlik ən uca məqam, ən ali titul, insanlığın ən yüksək zirvəsidir. Bu titul hər adəm övladına qismət olmur.

Çünki yaşadığı həyat boyu mənəviyyatı pak, amalları, niyyətləri təmiz insanlar, vətəndaş adının layiqliləri şəhadət yolunun yolçuları, igidlik məktəbinin müdavimləri olmuş və olurlar. "Ot kökü üstə bitər" misalı da məhz bu psixoloji düşüncələrin bəhrəsidir.

30 il yağıların əsarətində olan torpaqlarımız Ali Baş Komandanımızın və xalqımızın igid oğlanlarının birgə məqsəd-məramı, həm siyasi, həm cismani gücü sayəsində azadlığa qovuşdu.

2020-ci ilin sentyabrında səfərbərlik elan olunması və 27-də müharibənin başlanması, torpaqlarımızın müdafiə olunması və döyüşlər sayəsində geri alınması üçün ordumuz mübarizəyə başladı.

Bu mübarizəyə yüzlərlə vətənpərvər insan könüllü olaraq qoşuldu və 44 gün davam edən müharibədə igidlərimiz zəfər tarixini yazdı. Lakin bu qələbə ilə barışmaq istəməyən erməni separatçıları sərhəd zonalarında tez-tez terror hadisələri, toqquşmalar törədirdilər. Əlbəttə bu hərəkətlərin cavabı layiqincə verilirdi. Lakin bilirik ki, qələbə qurbansız olmur, vətən və torpaq da şəhidsiz vətənləşmir. Şəhidlər isə igidlərin igidləri seçilənlərdir. Bax, belə seçilən oğullardan biri idi Mirazim və Səba Səmədovların can parçası Xəyyam.

**Antiterrorun can acısı**

19-20 sentyabr 2023-cü il tarixində Azərbaycan Konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə bölgədə aparılan antiterror tədbirləri nəticəsində Azərbaycan silahlı Qüvvələrinin 205 hərbi qulluqçusu şəhid olmuşdu.

Şəhid olanların 39-u zabit, 23-ü gizir, 23-ü çavuş, N-i müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu olan əsgərlər, N-i isə sıravi əsgərlər(çağırışçı) idilər.

**Mirzəbəylinin mayor oğlu**

Hər kəsin özünəməxsus şəxsi məlumatlar yaddaşı olur. Belə yaddaşlar içərisində ən qısa və ən zəngin məlumatlısı isə hərbçilər və şəhidlər haqqında olan şəxsi məlumatlardır. Xəyyam Səmədovun şəxsi məlumatlarında olduğu kimi...

Doğum tarixi-16.01.1986

Doğum yeri-Qəbələ, Mirzəbəyli kəndi

Təhsili-ali

Məktəb-Qəbələ rayonu, Mirzəbəyli kənd orta məktəbi

Ali təhsili-Heydər Əliyev adına Azərbaycan Ali hərbi məktəbi

Ailə vəziyyəti-evli, övladları-2

İş yeri-Azərbaycan Respublikası Müdafiə Nazirliyi

Hərbi fəaliyyəti

Qoşun növü-Quru Qoşunları

Mükəlləfiyyət-Həqiqi hərbi xidmət

Rütbə-Mayor

Döyüşdüyü yerlər-Ağdərə

Medal və ordenlər-11 müxtəlif orden və medallarla təltif olunmuşdur.

Şəhidlik zirvəsi

Şəhid olduğu tarix - 20.09.2023

Şəhid olduğu yer-Ağdərə

Dəfn olunduğu yer-Qəbələ, Mirzəbəyli kənd qəbiristanlığı

Hər bir şəhid günəşin bir şəfəqi... Göy qübbəsindən yer üzünə işığıyla enər. Günəş öz işığını gecələr tənzimləyərək paylayar ki, qaranlıqlar çəkilib gündüz işığı gəldikcə insanlara bir istilik, doğmalıq bəxş edə...



Gecənin ulduzları günəşi gizlətmək üçün "çox çalışarlar", ancaq bacarmazlar. O xırda ulduzlar günəşin bir şəfəqinin işığına belə tab gətirməzlər. Şəhidlik də igidliyin bariz nümunəsidir və buna görə də, günəşsiz kainat olmadığı kimi, şəhidsiz də vətən olmur. Bax, belə bir günəş şəfəqidir baharömürlü Xəyyam Səmədov. Dumanlar , qar şaxtası, qış bəyazlığı belə günəşi gizlədə bilməz, bu şəfəqlər işıq seli ilə özünü biruzə verər.

Xəyyam da günəş işıqlarının səma zalında yaşayır, əzizlərini, vətənini seyr edə-edə... Yaşayış ünvanının ən dəqiq yeri isə vətənpərvər insanların ürəkləri...

***Qədim tarix dərəsindən***

***Səs ver mənim səsimə sən...***

16 yanvar Xəyyam Səmədovun cənnətdəki doğum gününün 3-cü ilidir. Həmişə ailəsinin, bəzən də iş yoldaşlarının əhatəsində qeyd etdiyi həyatının tarixi gününü 3 ildir ki, silahdaşlarının ruhları ilə birgə qeyd edir... Ancaq tarix yazanları tarix unutmur, vətən, torpaq sevgisi olan hər kəs igidlərinin mövludunu və anım gününü həmişə xatırlayır və məzarlarını, ailələrini ziyarət edirlər. Şəhidin doğum günündən bir gün əvvəl-yanvarın 15-də Mirzəbəyli kənd orta məktəbində şəhidin mövluduna həsr olunmuş tədbir keçirilmişdir. Tədbir iştirakçıları əvvəlcə şəhidin məzarını ziyarət etmiş, məzarüstünə güllər qoyulmuş, ruhuna dualar oxunmuşdur. Sonra tədbir məktəb binasında davam etmişdir.

Tədbirdə məktəb kollektivi ilə bərabər şəhidin ailə üzvləri, dərd ortaqları-şəhid valideynləri və əzizləri, rayon icra hakimiyyətinin nümayəndələri, təhsil şöbəsinin və başqa idarə və müəssisə nümayəndələri ilə birgə qazi və döyüşçülər, şəhidin döyüş və məktəb yoldaşları, kənd ziyalıları, vətənpərvər insanlar iştirak etmişlər.

Tədbiri məktəbin direktoru Əsmayə Hüseynova açmış, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilmiş, şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir. Əsmayə Hüseynova vətənpərvərlik və məktəbin məzunu olmuş Xəyyam Səmədov haqqında məlumat vermişdir. Həmçinin şəhidin xatirə tədbirində RİH-in nümayəndəsi Rəşad İbrahimli, Mirzəbəyli Kənd İnzibati Dairəsi üzrə nümayəndə Absalam Hüseynov, Qəbələ təhsil sektorunun müdiri Arifə Bayramova, şəhidin ailə üzvləri-ata-anası-Mirazim və Səba Səmədovlar, həyat yoldaşı Piyalə Səmədova və övladları çıxış etmişlər. Şəhid ailələrindən Əsli Babayeva, Eldəniz Niftalıyev və başqaları, həmçinin, "Qəbələ səsi" qəzetinin Baş redaktoru Azad Məmmədov çıxış etmişlər.

Məktəblilərin ədəbi-bədii kompozisiyası da tədbir iştirakçıları tərəfindən maraqla qarşılanmışdır.

Unutqanlıq bizə yad olmalı, tarix onu yenidən yazanları əbədiyyən yaşatdığı kimi insanlar da vətəni vətən edən igidləri əbədiyyən yaşatmalıdırlar. Hər bir şəhidin sükut içində olan şəkildəki baxışlarını oxumaq lazım. Bilirsiniz nə deyir o baxışlar?! Xəyyamın baxışları dediklərini!

***Qədim tarix dərəsindən,***

***Səs ver mənim səsimə sən...***

**Afaq ƏSGƏRZADƏ,**
**Mirzəbəyli kənd tam**
**orta məktəbinin müəllimi.**

# Silsilə tədbirlər keçirilib

20 Yanvar faciəsinin 36-ci ildönümü ilə əlaqədar "Vətən şəhidləri heç vaxt unutmayacaq!", "Tariximizin şanlı səhifəsi" və digər mövzularda mühazirə və "Dəyirmi masa"lar təşkil olunub. Tədbirlər Dövlət Himninin



səsləndirilməsi və Vətən şəhidlərinin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb. Tədbirdə çıxış edənlər şagirdlərə 1990-cı ilin 20 Yanvar hadisələrinin baş verdiyi tarixi dövr haqqında ətraflı məlumat verərək,



milli qürur günü kimi tarixə yazılan 20 Yanvarı və bu tarixi yazanların unudulmaması, hər zaman xatırlanmasını şagirdlərə tövsiyə etmişlər. Sonda məktəblilərin hazırladıqları ədəbi-bədii kompozisiyalar və səhnəciklər təqdim olunmuşdur.

# Dezinformasiyadan qorunun, rəsmi mənbələrə güvənin

MEDİA Agentliyi və digər rəsmi qurumlar saxta və dezinformasiya xarakterli məlumatlara inanmamağı, yalnız yoxlanılmış, rəsmi mənbələrin məlumatlarına etibar etməyi tövsiyə edir. Sosial şəbəkələrdə yayılan qeyri-rəsmi, mənbəyi məlum olmayan xəbərlər ictimaiyyətdə çaşqınlıq yaratmaq məqsədi daşıyır. Odur ki,Cəmiyyət də dezinformasiyalara qarşı etiraz mövqeyini nümayiş etdirməlidir. Son vaxtlar süni intellekt vasitəsilə hazırlanmış saxta videomateriallların yayılması cəmiyyətdə reallıqla bağlı yanlış təsəvvürlər formalaşdırır. Əfsuslar olsun ki, süni zəkadan xəbəri olmayan bəzi insanlar bu cür kontentlərin gerçək olduğunu zənn edirlər. Bəzən ölkə liderlərinin "deepfake" texnologiyası ilə nalayiq ifadə və hərəkətlər etdikləri saxta videolar da hazırlanır. Belə məzmunların dövriyyəyə buraxılması ictimai təhlükəsizlik üçün ciddi risklər formalaşdırır. Azərbaycanda "deepfake" texnologiyasına dair ayrıca qanun olmasa da, bu üsulla dövlət rəhbərlərinin və yüksək vəzifəli şəxslərin təhrif olunmuş şəkildə təqdim edilməsi media qanunvericiliyi çərçivəsində qanunsuz hesab edilir.

30 il müddətində bu proses Ermənistan və beynəlxalq "erməni şəbəkəsi" tərəfindən idarə olunub. Lakin Ermənistanla münaqişənin bitməsi, ölkəmizə qarşı yönələn informasiya savaşını aradan qaldırmayıb. Əksinə, bu gün Azərbaycana qarşı dezinformasiya yayanların çeşidi daha da artıb. Azərbaycanın yürütdüyü müstəqil xarici siyasət kursu, müəllifi olduğu və icra etdiyi regional, qlobal layihələr ölkəni daim dezinformasiyaların hədəfinə çevirir. Bu xüsusda Azərbaycanın rəsmi şəxslərinə qarşı dezinformasiyaların artması gözləniləndir. Problem ondadır ki, rəqəmsal texnologiyaların sürətli inkişafı, sosial şəbəkə platformalarının çoxalması dezinformasiyanın yayılması üçün daha geniş imkanlar yaradır.




Məhz "deepfake" əsaslı texnologiyalar asanlıqla yaradılaraq sosial şəbəkələr vasitəsilə sürətlə yayılır. Bu isə məqbul olmayan, zərərli, qanun və qaydalara ziddir. Lakin təəssüf ki, süni zəka, artıq günümüzün reallığıdır. Mübarizə aparılsa da, bu cür halları tamamilə aradan qaldırmaq mümkün deyil. Bir sözlə, cəmiyyətimiz bu tip materialların təsirinə düşməməli, onlara qarşı etiraz mövqeyi nümayiş etdirməlidir. Həmçinin vətəndaşlar yalnız legitim media subyektləri tərəfindən yayılan məlumatlara istinad etməlidirlər.